*“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 13 may 2015-ci il | № 36 (1952) | Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

***Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü günüdür. Qədirbilən Azərbaycan xalqı, bütün dünyada Heydər Əliyevi tanıyanlar və sevənlər 12-ci ildir ki, bu dahi şəxsiyyətin doğum gününü onsuz qeyd edirlər.***



Ümummilli liderimizin doğum günü - mayın 10-da sübh tezdən respublika ictimaiyyətinin nümayəndələri, ölkəmizin müxtəlif rayon və şəhərlərindən Bakıya gəlmiş insanlar, Azərbaycan paytaxtının qonaqları Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə tər güllər qoyur, onun əziz xatirəsini dərin ehtiramla yad edirlər.

Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970-1980-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük Qayıdış idi və ulu öndər özünün müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

Xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, ailə üzvləri, ulu öndərin doğmaları, yaxınları onun məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, onun xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət himni səsləndi.

Sonra dövlətimizin başçısı və ailə üzvləri oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın, görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarlarını ziyarət edərək üzərinə gül dəstələri qoydular.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak edirdilər.

**AZƏRTAC**

## Azərbaycan Prezidenti İlham Əliyev Moskvada Qələbənin 70 illiyi münasibətilə keçirilən bayram tədbirlərində iştirak edib



***Mayın 9-da Moskvada 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 70 illiyi münasibətilə bayram tədbirləri keçirilib.***

Rusiya Federasiyasına işgüzar səfərə gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva bayram tədbirlərində iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Rusiya dövlətinin başçısı Vladimir Putin Kremldə qarşıladı.

Fəxri qonaqlar bayram təntənələrinin keçirildiyi Qızıl meydana gəldikdən sonra hərbi parad başladı.

Rusiyanın Müdafiə naziri Sergey Şoyqu və Quru Qoşunlarının Baş komandanı Oleq Salyukov paradı qəbul etdilər.

Mərasim iştirakçılarını təbrik edən Rusiya Prezidenti Vladimir Putin dünya əhalisinin 80 faizinin cəlb olunduğu İkinci Dünya müharibəsində qazanılan qələbədə keçmiş Sovet xalqlarının, həmçinin antihitler koalisiyasını təmsil edən ölkələrin xidmətlərinin heç vaxt unudulmayacağını bildirdi. Qələbə gününün həmin xalqların və dövlətlərin ümumi bayramının olduğunu vurğulayan Vladimir Putin bildirdi ki, heç vaxt unudulmayacaq bu tarix müasir dövr üçün də bir örnəkdir.

Daha sonra paradda hərbçilərin təntənəli keçidi başladı. Meydana MDB və antihitler koalisiyası ölkələrinin hərbçiləri daxil oldu. Dəstənin önündə Azərbaycan hərbçiləri gedirdi. Mayor Mehdi Mahmudovun rəhbərliyi ilə 70 Azərbaycan hərbçisindən ibarət parad heyəti Qızıl meydanda tribunalar qarşısından keçdi.

Azərbaycanlı zabit və əsgərlər faşizm üzərində Qələbənin əldə olunmasında müstəsna və tarixi rol oynayıblar, ən ağır döyüşlərdən qəhrəman kimi çıxıblar. Odur ki, tarixi Qələbənin qazanılmasında ölkəmizin əvəzsiz xidmətləri danılmazdır. O vaxt Sovet İttifaqının tərkibində olan Azərbaycandan cəbhəyə 700 minə yaxın hərbçi yollandı. Böyük Qələbənin qazanılmasında misilsiz xidmətlər göstərən hərbçilərimizin 300 mini döyüş meydanlarında həlak oldu. 123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü, 30 nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edildi, 170 min əsgər və zabitimiz isə müxtəlif orden və medallarla mükafatlandırıldılar.

Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdi, yüzlərlə həmyerlimiz partizan dəstələrinin tərkibində vuruşdu. Azərbaycanın əsgər və zabitləri Brest, Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Ukrayna, Belorus, Pribaltika cəbhələrində cəsarətlə vuruşdular. Azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci milli diviziyalar Simferepolun, Odessanın, 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya isə Yuqoslaviyanın azadlığı uğrunda fəal iştirak etdilər.






* * *

Faşizm üzərində Qələbənin 70 illiyi münasibətilə keçirilən hərbi parad zirehli texnikanın keçidi ilə davam etdi. Dəstənin önündə əfsanəvi "T-34" tankı gedirdi. Bundan əlavə, paradda nümayiş etdirilən çoxsaylı döyüş maşınları arasında Rusiya istehsalı olan "Armata" ağır zirehli piyada maşını, həmçinin "Yarus" raket kompleksinin ilk nümunələri, raket kompleksləri də var idi.

Qeyd edək ki, Qələbənin qazanılmasında yalnız qəhrəman övladlarımız deyil, həm də Azərbaycan neftinin böyük rolu olub. Bakı neftinin Böyük Vətən müharibəsinin taleyini həll etməsi fikri elə müharibənin ilk illərində öz təsdiqini tapıb. Düz 5 il Bakı nefti ön və arxa cəbhəni yüksək keyfiyyətli yanacaqla təmin edib. Müharibə dövründə SSRİ-də ümumilikdə 110 milyon ton neft çıxarılıb. Bu neftin 75 milyon tonunu, cəbhəyə göndərilən neft məhsullarının isə 85-90 faizini Azərbaycan verib. Ön cəbhədəki hər 4 tankdan 1-i, təyyarələrin böyük əksəriyyəti Azərbaycan nefti ilə hərəkət edib. Məhz bu səbəbdən də Bakını İkinci Dünya müharibəsinin taleyini həll edən şəhər adlandırırlar. Bakı neftinin müharibənin gedişi üçün həlledici rol oynadığını yaxşı bilən Hitler məhz buna görə Almaniyanın birinci tank ordusuna 1942-ci il sentyabrın 25-də Bakını zəbt etmək əmrini vermişdi. Hitler "Qafqaza hücuma başlayanda biz mütləq Bakını tutmalıyıq, əgər biz Bakı neftini ələ keçirməsək müharibəni uduzacağıq", - demişdi. Düşmən 1942-ci ildə 71, 1943-cü ildə 3 dəfə Bakı səmasını zəbt etməyə çalışıb. Qəhrəman təyyarəçilərimiz isə bu hücumların qarşısını alır, düşmənin 96 təyyarəsini məhv edirlər. Burada daha bir məqamı da xüsusi vurğulamaq lazımdır. Bakının neft emalı müəssisələri alimlərin və mühəndis-texniki işçilərin səyi nəticəsində cəbhə üçün yüksəkoktanlı benzin istehsalını da uğurla həyata keçirdilər. 1941-ci ilin yayında Bakıda ilk hidrogen birləşmələri qrupu hazırlandı. Akademik Yusif Məmmədəliyevin başçılığı altında bir qrup alim 28 gün laboratoriyadan çıxmayaraq neft-kimya elmində böyük nailiyyət hesab edilən yüksəkoktanlı aviasiya yanacağı əldə etdilər. Bu, müharibədə motorlar döyüşündə ciddi dönüşə səbəb oldu.

Parad zamanı Moskva səmasında hərbi hava qüvvələrinin də nümunəvi çıxışları oldu. Onların arasında "TU-160" strateji bombardmançı, dünyanın "AN-124", "Ruslan" kimi ən böyük hərbi nəqliyyat təyyarələri də var idi. Rusiyanın məşhur "SU-24", "SU-34" və "MİQ-29" qırıcılarının pilot qrupları da səmada öz məharətlərini nümayiş etdirdilər.

Havada yanacaq dolduran təyyarələrin çətin tapşırığı məharətlə yerinə yetirməsi və hərbi vertolyotların manevrləri maraqla qarşılandı. On beş təyyarədən ibarət dəstə Qələbənin yubiley rəmzi olan 70 rəqəmini səmaya yazdılar.

Hərbi paraddan sonra dövlət və hökumət başçıları Naməlum Əsgər abidəsi önünə əklil qoydular.

Sonra birgə xatirə şəkli çəkdirdilər.

* * *

Bununla da Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya işgüzar səfəri başa çatdı.

**AZƏRTAC**

# Müdafiə Nazirliyinin rəhbərliyi Fəxri xiyabanı ziyarət edib

***Mayın 10-da Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə Fəxri xiyabanı ziyarət edib.***

***Xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarı önünə əklil və gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla yad edilib.***



Azərbaycan xalqı və dövlətçiliyi qarşısında çoxşaxəli və genişmiqyaslı xidmətlər göstərmiş ümummilli lider Heydər Əliyevin xatirəsi həmişə ölkəmizdə böyük ehtiramla xatırlanır. Ulu öndərin doğum günü hər il ümumxalq bayramı kimi Azərbaycanın hər yerində qeyd olunur. Vətənin xilaskar oğlunun anadan olmasının 92-ci ildönümü geniş tədbirlərlə keçirildi.

Budur, Fəxri xiyabanda yenə də böyük izdiham var. Ümummilli liderimizin əziz xatirəsini yad etmək üçün xiyabana gələnlərin sonu görsənmir. Əllərində gül-çiçək dəstəsi tutmuş insanlar - dövlət məmurları, müxtəlif peşə sahibləri, sadə zəhmət adamları Fəxri xiyabana gəlib ulu öndərin məzarını ziyarət etməklə bir daha onun xatirəsinə dərin hörmət və ehtiramlarını bildirirlər

Ümummilli liderimizin Azərbaycan xalqının rifahı naminə gördüyü işlər heç zaman yaddaşlardan silinməyəcək. Heydər Əliyev müasir Azərbaycanın qurucusu və memarıdır. Ölkəmizə rəhbərlik etdiyi dövrlərdə görülən quruculuq işləri əslində bilavasitə onun təşkilatçılığı ilə həyata keçirilib. Paytaxtımızda müstəqillik illərinə qədər və ondan sonrakı dövrlərdə də inşa olunmuş bir çox müasir binalar, komplekslər bu dahi şəxsiyyətin adı ilə bağlıdır.

Azərbaycanın inkişafında, sənayenin tərəqqisində görkəmli dövlət xadiminin əməyini xüsusilə qeyd etmək lazımdır. Paytaxtımızda və digər şəhərlərdə inşa edilmiş müasir sənaye müəssisələri Heydər Əliyevin şəxsi təşəbbüsü və böyük zəhmətinin məhsuludur. Ən ümdəsi isə, müasir Azərbaycan ordusunun yaradılmasında ümummilli liderimizin müstəsna xidmətləri olmuşdur. Silahlı Qüvvələrimizin banisi məhz ulu öndər Heydər Əliyevdir.

**"Azərbaycan Ordusu"**

# Dahi rəhbər, qüdrətli şəxsiyyət



***Azərbaycan xalqının böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyevin Vətənimiz və xalqımız qarşısında xidmətləri əvəzsizdir. Böyük rəhbərin xidmətləri sayəsində ölkəmiz XX yüzillikdə ikinci dəfə istiqlaliyyətə qovuşduqdan sonra müstəqilliyini və suverenliyini qoruyub saxlaya bildi.***

Yaranmış böyük təhlükələrdən, xaosdan çıxaraq yeni inkişaf dövrünə qədəm qoydu. Havadarlarından dəstək alan düşmənlə atəşkəsə nail olundu. Bundan sonra, ölkəmizdə quruculuq işlərinə start verildi. Ordumuzun yenidən formalaşmasına başlanıldı. Peşəkar hərbçilərə üstünlük verildi, Silahlı Qüvvələrdə vahid komandanlıq yaradıldı. Qısa müddətdə cəbhə bölgəsində uğurlar əldə edildi. Ordumuzun gücləndirilməsi həmişə ulu öndərin fəaliyyətində əsas yer tutub. Onun uzaqgörən siyasəti nəticəsində ölkəmiz bütün dünyada tanındı, dövlətimiz bir çox beynəlxalq təşkilatların üzvü oldu. Həmin dövrdən ölkəmiz bəşəri dəyərlərə söykənən tərəqqi yolunu seçdi. Xalqımız bu gün də dahi oğlu ilə fəxr edir, qürur duyur. Onun ideyalarını yaşadır, xatirəsini böyük ehtiramla yad edir.

Qədim Nizami yurdu Gəncə şəhərində əsl izdiham vardı. Böyük öndərin xatirəsini yad etmək üçün onun adını daşıyan meydana gələnlərin ardı-arası kəsilmirdi. Məktəblilər, şəhər sakinləri, müxtəlif peşə sahibləri, ictimaiyyət nümayəndələri mərkəzi meydana gələrək onun abidəsini ziyarət edirdilər. Şəhərin mərkəzi meydanına üz tutaraq dahi şəxsiyyətin xatirəsinə hörmət və ehtiramlarını bildirənlər arasında hərbçilər də az deyildi. Ulu öndərin anadan olmasının 92-ci ildönümü münasibətilə bölgədə yerləşən hərbi hissələrin şəxsi heyətlərinin nümayəndələri, Azərbaycanın Milli Qəhrəmanı general-leytenant Rövşən Əkbərovun rəhbərliyi ilə hərbi qulluqçular fenomen şəxsiyyətin xatirəsini dərin ehtiramla yad ediblər.

General-leytenant Rövşən Əkbərov hərbi qulluqçular adından ümummilli liderin abidəsi önünə əklil qoydu.

Bölgədə yerləşən hərbi hissələrdə də ulu öndərin xatirəsinə həsr olunmuş mərasimlər keçirildi.

* * *

"N" hərbi hissəsində xalqımızın xilaskarı, müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə və Böyük Vətən müharibəsində Qələbənin 70 illiyinə həsr olunmuş tədbir keçirildi. Öncə Dövlət himni səsləndirildi. Ulu öndərin və Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi yad edildi.

Bərdə rayon Ağsaqqallar Şurasının sədri Arif Əliyev, müharibə veteranı Vəli Həsənov, polkovnik-leytenant Elnur Qebedov, Qadınlar Şurasının sədri Rahilə Babayeva, ehtiyatda olan zabit Fəxrəddin Əlirzayev, kapitan Xeyrulla Hüseynov, əsgər Saməddin Səmədzadə və başqaları çıxış edərək ulu öndər Heydər Əliyevin zəngin həyat yolundan, böyük dövlətçilik təcrübəsindən danışdılar. Natiqlər bildiriblər ki, ümummilli liderin Sovet hakimiyyəti illərində Azərbaycana rəhbərliyi dövründə ölkəmiz inkişaf edərək, qabaqcıl sənaye və mədəniyyət mərkəzinə çevrilmişdir. Onun diqqət və qayğısı sayəsində azərbaycanlı gənclər keçmiş Sovetlər İttifaqının ali hərbi məktəblərində zabit peşəsinə yiyələnmişlər. Respublikamızda ilk ibtidai hərbi məktəbin ulu öndər tərəfindən yaradılmasını qeyd edən natiqlərə görə, o illərdə hərbi təhsil alan gənclər müstəqil ölkəmizin Silahlı Qüvvələrinin formalaşmasında müstəsna rola malik oldular.

Həmçinin, qeyd edilib ki, dahi rəhbərin siyasi kursunun onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən inamla davam etdirilir.

Məktəblilər ulu öndərə və qələbəyə həsr olunmuş şeirlər söylədilər və incəsənət ustaları konsert proqramı ilə çıxış etdilər.

**Mübariz MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**

# Qəhrəmana ehtiram



***Faşizm üzərində qazanılan Qələbədən 70 il keçir. Bu əlamətdar gün hər il respublikamızda təntənə ilə qeyd edilir. Böyük Vətən müharibəsində həlak olanların məzarları üzərinə gül-çiçək dəstələri qoyulur, xatirələri hörmətlə anılır.***

Mayın 9-da Şəhidlər xiyabanında iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları generalı Həzi Aslanovun məzarı ətrafında qələbəlik idi. Əllərində gül dəstələri tutmuş veteranlar, hərbçilər onun məzarını ziyarət etməyə gəlmişdilər. Silahlı Qüvvələrin hərbi orkestri marş və mahnılar ifa edirdi. Musiqi səsi dalğa-dalğa ətrafa yayılır, qəlbləri riqqətə gətirirdi.

Müdafiə Nazirliyinin rəhbərliyi və yüksək rütbəli zabitləri hər il mayın 9-da Şəhidlər xiyabanına gələrək tank qoşunları generalı, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarını ziyarət edir, abidəsi önünə əklil qoyurlar. Bu il



yenə də Müdafiə Nazirliyinin rəhbərliyi və yüksək rütbəli zabitləri, qəhrəmanın məzarı qarşısında düzülüblər.

Müdafiə Nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Müdafiə Nazirliyi adından abidə önünə əklil qoydu. Xalqımızın igid oğlunun xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Müharibə veteranları adından general-polkovnik Nəcməddin Sadıkova "Veteranların qayğıkeşi" diplomu və "Veteran həmrəyliyi" medalı təqdim edildi.

Sonra Silahlı Qüvvələrin Baş Qərargah rəisi veteranlarla görüşüb söhbət etdi, onlarla xatirə şəkli çəkdirdi.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Hərbi Liseydə ulu öndərin anım mərasimi

***Bu günlərdə C.Naxçıvanski adına Hərbi Liseydə ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Məktəbin rəhbərliyi qərargahda ulu öndərin xatirəsinə ucaldılmış büstün önünə tər güllər qoyub. Mərasimdə öncə görkəmli dövlət xadimi Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Azərbaycan Respublikasının Dövlət himni oxunub.***






Tədbirdə çıxış edən Hərbi Lisey rəisinin müavini polkovnik Rəhim Səmədov xalqımızın böyük oğlu Heydər Əliyevin həyat və fəaliyyətindən danışıb. O qeyd edib ki, müstəqilliyimizin ilk illərində milləti, dövləti xilas edəcək yeganə şəxsiyyət Heydər Əliyev idi. Xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdan ulu öndər siyasi qətiyyət nümayiş etdirərək dövlətçiliyin möhkəmləndirməsinə nail oldu. Ölkədə baş alıb gedən xaos və anarxiyaya son qoyuldu, vətəndaş müharibəsinin qarşısı alındı. Ordu quruculuğunda mühüm işlər görüldü. Zamanında yaratmış olduğu C.Naxçıvanski adına Hərbi Liseyin məzunları ordu quruculuğunda öz töhfələrini əsirgəmədilər. Bu gün məktəbimizin hər bir məzunu fəxr edir ki, ulu öndərin yaratdığı hərbi təhsil ocağını bitirib.

Hərbi Liseyin kursantları ümummilli liderin xatirəsinə həsr olunmuş şeirlər söyləyiblər. Xətai rayonu Mədəniyyət Mərkəzinin və Hərbi Liseyin özfəaliyyət kollektivinin birgə konsert proqramı olub. C.Naxçıvanski adına Hərbi Liseyin rəisi general-mayor Mirzə Almasov tədbirə qatılan Xətai rayon Mədəniyyət Mərkəzinin musiqi kollektivini fəxri fərmanla mükafatlandırıb.

**Bəxtiyar MUSAOĞLU,**
**"Azərbaycan Ordusu"**



***Azərbaycan Respulikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən, Böyük Vətən müharibəsində Qələbənin 70 illiyi ilə bağlı mayın 9-da ölkəmizin hər yerində tədbirlər keçirilib.***

Yasamal rayonunda əfsanəvi partizan, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin abidəsini ziyarət edənlər də çox idi. Onlar abidənin önünə tər güllər qoymaqla xalqımızın igid oğluna sonsuz sevgi və istəklərini bildirirdilər.

Ziyarətə gələnlər arasında Azərbaycan Ordusunun yüksək rütbəli zabitləri də vardı. Qəhrəmanlığı ilə tarix yazan Mehdi Hüseynzadənin abidəsi önünə Müdafiə Nazirliyinin rəhbərliyi adından Azərbaycanın Milli Qəhrəmanı general-mayor Fəxrəddin Cəbrayılov əklil qoydu.

Böyük Vətən müharibəsi illərində arxa cəbhədə xidmət etmiş əmək veteranları Qiyas Vəliyev, Budaq Ələkbərov, mərhum müharibə və əmək veteranı Salman Vəliyevin qızı, Bakıdakı 38 saylı orta məktəbin müəllimi Səfurə Vəliyeva da ziyarətə gələnlər arasında idı. General-mayor F.Cəbrayılov onlarla səmimi görüşüb faşizmə qarşı döyüşlərdə xalqımızın rolundan bəhs etdi. General qeyd etdi ki, istər ön, istərsə də arxa cəbhədə xalqımız hər cür əziyyətə qatlaşdı ki, müharibədən qalib çıxaq. Qələbədə xidməti olan hər kəsə minnətdar olduğunu bildirən nazirliyin nümayəndəsi əminliklə bildirdi ki, ermənilərin işğal etdikləri ərazilərimiz də Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində tezliklə azad ediləcək və xalqımız yeni bir qələbə sevincini yaşayacaq.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Qələbənin 70-ci ildönümünə həsr olunmuş tədbirlər





Böyük Vətən müharibəsi bəşəriyyət üçün dəhşətli, faciəli fəlakətlər dövrü kimi yadda qalıb. Bu illərdə xalqımız həm ön, həm də arxa cəbhədə çox böyük qəhrəmanlıq və şücaət nümunələri göstərib.

Mayın 9-da Nərimanov rayonunda yerləşən "Qardaşlıq məzarıstanlığında" faşizm üzərində Qələbənin 70-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Müdafiə Nazirliyinin nümayəndəsi general-mayor Mehman Baxışov, Nərimanov rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri ehtiyatda olan general-mayor Dadaş Rzayev, Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin və digər ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Abdin Fərzəliyev bütün tərəqqipərvər bəşəriyyətin faşizm üzərində qələbənin növbəti ildönümünü təntənə ilə qeyd etdiyini bildirib, tarixi qələbənin qazanılmasında həmvətənlərimizin böyük fədakarlıqlarından danışıb.

Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin çıxışında ümummilli liderin siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin Böyük Vətən müharibəsinin iştirakçılarına göstərdiyi diqqət və qayğını yüksək qiymətləndirib.

Sonra ehtiyatda olan general-mayor Dadaş Rzayevə söz verilib. O, məhz ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra faşizm üzərində qələbənin təntənəli şəkildə qeyd edildiyini, cəmiyyətin ən dəyərli üzvləri kimi veteranlara diqqət və qayğının artırıldığını, 9 May - Qələbə bayramının müstəqil Azərbaycanda dövlət səviyyəsində keçirilən bayramlar sırasına daxil edildiyini vurğulayıb.

Sonda "Qardaşlıq məzarıstanlığı"nda ucaldılmış abidə önünə əkillər və tər gül dəstələri qoyulub.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

Hərbi and

# Vətən andı müqəddəsdir

## Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissə və birləşmələrdə gənc əsgərlərin andiçmə mərasimi keçirilib

***Mayın 10-da "N" hərbi hissəsində təntənəli andiçmə mərasimi keçirilib. Həmin gün ikiqat bayram sevinci yaşanıb. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü, həmçinin andiçmə mərasimi burada təntənə ilə qeyd edilib.***

*"Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir. Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət edib, sonra tərxis olunan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur".*

Heydər ƏLİYEV

İzdihamlı tədbirdə ordu birləşməsinin komandanlığı, ictimaiyyətin nümayəndələri, veteranlar və əsgərlərin valideynləri iştirak ediblər.

Mərasim iştirakçıları tərəfindən ilk olaraq ümummilli liderin abidəsi önünə tər gül dəstələri qoyulub və xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Nümunəvi Hərbi orkestrin ifası ilə Döyüş bayrağı sıra meydanına gətirildikdən sonra ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti barədə mərasim iştirakçılarına geniş məlumat verilib.

Tədbirdə çıxış edən polkovnik İlqar Lətifov bildirib ki, Heydər Əliyevin hakimiyyəti zamanında ordu quruculuğunda ciddi dəyişikliklər başlayıb. Təcavüzkar erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindəki azğınlıqlarının qarşısı alınıb və cəbhə xəttində atəşkəs elan olunub. Ümummilli liderimiz çıxışlarından birində deyib ki, "Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha qüvvətli edir". Azərbaycan xalqı ulu öndərimizin layiqli davamçısı olan ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşib.



Gənc əsgərlərimizə demək istəyirəm ki, hərbi xidmət keçmək Azərbaycanın vətənpərvər oğullarının şərəf borcudur, Vətənimiz Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün müdafiəsinə hər an hazır olmalıyıq. Hərbi andın mahiyyəti də məhz bundan ibarətdir.



Gənc əsgərlər Vətənə sədaqət andı içdikdən sonra şəxsi heyəti polkovnik Münasib Babayev və digər qonaqlar təbrik ediblər.

"Hərbi and içərək respublikamızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə Azərbaycan torpaqlarının əsl müdafiəçiləri oldunuz. Bu gün xalqımızın, vətəndaşlarımızın təhlükəsizliyi sizin xidmətinizdən asılıdır", - deyə zabit vurğulayıb.

* * *

Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində də gənc əsgərlərin andiçmə mərasimi təntənəli anları ilə yadda qalıb.

Azərbaycanın Dövlət bayrağının meydana gətirilməsi ilə başlanan tədbirdə öncə polkovnik-leytenant İkram Səfərov gənc əsgərlərin hərbi andı qəbul etmək üçün düzülməsi barədə raportu qəbul edib və əlamətdar hadisə münasibətilə tədbirə toplaşanları salamlayıb.

Sonra gənc əsgərlər silah qardaşlığı nümayiş etdirərək Hərbi andın mətnini ucadan oxuyublar.

Əlamətdar gündə hərbi hissənin zabitlərindən İ.Səfərov və B.Hümbətov çıxış edərək Silahlı Qüvvələrimizin tamhüquqlu üzvləri sıralarına qoşulan gəncləri təbrik ediblər. Andiçmə mərasiminin ümummilli liderimiz Heydər Əliyevin doğum günü ilə bir vaxta təsadüf etdiyini vurğulayan zabitlər dahi rəhbərin müasir ordumuzun formalaşmasında tarixi xidmətlərindən danışıblar. Onlar qeyd ediblər ki, Azərbaycanın ən güclü orduya malik olması ümummilli liderin əsas məqsədlərindən biri olub və hazırda ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə bu arzu reallığa çevrilib. Zabitlər hərbi andın mahiyyətini və müqəddəsliyini açıqlayaraq əminliklə bildiriblər ki, müasir gənclər Vətənə və dövlətimizə sədaqətlə xidmət edəcək, ordumuzun qarşısında dayanan tarixi vəzifənin qısa bir vaxtda yerinə yetirilməsinə öz töhfələrini verəcəklər.

Salyan rayonundan hərbi xidmətə çağırılmış Tamerlan Rzayev gənc əsgərlər adından çıxış edib və son damla qanlarına kimi Vətənin müdafiəsində dayanacaqlarına söz verib.

Valideyn Niyazalı Abbaszadə isə söz alıb hərbi andiçmə münasibətilə gənc əsgər heyətinə təbriklərini çatdırıb.

Şəxsi heyət təntənəli marşla tribunanın qarşısından keçib.

Sonda Mingəçevir şəhərindən tədbirə qonaq gələn S.Vurğun adına bədii özfəaliyyət kollektivi maraqlı konsert proqramı ilə gənc əsgərlərə xoş ovqat aşılayıb.

* * *

Gənc əsgərlərin həyatında unudulmaz günə çevrilən andiçmə mərasimi "N" hərbi hissəsində də yüksək səviyyədə keçirildi. Respublikamızın müxtəlif bölgələrindən gəlmiş valideynlər, şəhər ictimaiyyətinin nümayəndələri, Böyük Vətən müharibəsi veteranları hərbi hissənin həyətinə toplaşmışdılar.

Tədbir ulu öndər, tarixi şəxsiyyət Heydər Əliyevin hərbi hissədəki büstü önünə əklil qoyulmaqla başlandı və mərkəzi meydanda davam etdirildi.

Andiçmə mərasiminə həsr olunmuş təntənəli mərasim açıq elan olundu. Üçrəngli bayrağımız hərbi orkestrin müşayiəti ilə meydana gətirildi.

Polkovnik Gəray Bağırov gənc əsgərlərə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrik məktubunu çatdırdı.

Polkovnik Elşad Əbilov birliyin komandanlığının gənc əsgərlərə təbrik və müraciətini oxudu.

Polkovnik-leytenant Allahverdi Hacıyev çıxış edərək bildirdi ki, bu gün bütün xalqımız üçün tarixi bir gündür. Ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümüdür. Bütün xalqımızla birgə Silahlı Qüvvələrimizin şəxsi heyəti də onun xatirəsini yaşadır. Bu gün şəxsi heyətimiz ulu öndərin ideyalarını əsas tutaraq Vətən qarşısında borclarını ləyaqətlə yerinə yetirir. Hazırda dahi rəhbərin siyasi kursu onun layiqli varisi, Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən davam etdirilir. İnanıram ki, bu tarixi gündə hərbi andı qəbul edən əsgərlərimiz də tezliklə qələbə xəbəri ilə xalqımızı sevindirəcəklər.

Gənc əsgərlər adından çıxış edən Vahid Kərimov müsəlləh əsgər kimi həmişə Vətənin əmrinə hazır olacaqlarını bildirdi.

Əsgər valideyni Qüdrət Yusibov isə böyük öndərin anım günündə övladının hərbi andı qəbul etməsindən qürur hissi keçirdiyini söylədi. Qeyd etdi ki, ulu öndərin yaratdığı ordunun xalqımıza qələbə sevinci bəxş edəcəyinə qətiyyətlə inanır. "Hazırda Ali Baş Komandan İlham Əliyev tərəfindən həyata keçirilən böyük quruculuq işləri, orduya göstərilən diqqət və qayğı bizi ürəkdən sevindirir".

Kəşfiyyat bölüyünün əsgərləri öz döyüş hazırlıqlarını nümayiş etdirdilər.

Sonra əsgərlər mətin addımlarla tribunanın önündən keçdilər.

* * *

Hərbi Dəniz Qüvvələrində də gənc matrosların hərbi andiçmə mərasimi keçirilib. Gənc matroslar hərbi andı qəbul etdikdən sonra matros Anar Əlizadə çıxış edərək tarixi bir gündə - ümummilli liderimizin doğum günündə hərbi andı qəbul etməsindən hədsiz qürur duyduğunu bildirib və cənab Ali Baş Komandan İlham Əliyevin hazırda ordu quruculuğuna göstərdiyi diqqət və qayğıdan, ordumuzun qüvvətli olmasından danışıb.

Sonra çıxış üçün söz valideyn Sahib Əliyevə verilib. O da çıxışında ümummilli liderimiz Heydər Əliyevin doğum günündə gənc matrosların andiçmə gününün sevindirici və fəxredici olduğunu vurğulayaraq tezliklə Azərbaycan bayrağının Qarabağda dalğalanmasını arzulayıb.

* * *

Artilleriya qoşunları sırasında önəmli yer tutan "N" hərbi hissəsində də ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə və gənc əsgərlərin hərbi andı qəbul etmələrinə həsr olunmuş mərasim keçirildi. Zabit Vüqar Məmmədov əlamətdar günlər münasibətilə şəxsi heyəti salamladı və təbrik etdi. Sonra hərbi hissənin Döyüş bayrağı meydana gətirildi. Mərasim açıq elan olundu. Ulu öndərin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Gənc əsgərlər təyin olunmuş yerə gələrək əllərini müqəddəs bayrağımıza, döyüş silahlarına qoyaraq Vətənə, xalqa sədaqətlə xidmət edəcəklərinə, Vətən yolunda hər an mübarizəyə hazır olacaqlarına and içdilər.

Polkovnik Vüqar Məmmədov dahi şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyəti haqqında danışaraq Vətənə, xalqa misilsiz xidmətlərini, ölkəmizin müstəqilliyinin, suverenliyinin möhkəmləndirilməsi üçün yorulmaz fəaliyyətini tədbir iştirakçılarının diqqətinə çatdırdı. "İlk hərbi tə-



mayüllü məktəbin yaradılması ulu öndərin uzaqgörən siyasətinin bəhrəsi idi. Bu məktəbin yetirmələri hazırda ordumuzun zabit heyətinin əsasını təşkil edir. Onun qayğısı, diqqəti sayəsində ölkəmizdə hərbi təhsilin əsası qoyuldu və ordu quruculuğu sahəsində uğurlu addımlara imza atıldı. Dahi rəhbərin quruculuq işləri layiqli varisi, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə rəhbərliyi ordumuzun döyüş qabiliyyətinin daha da möhkəmləndirilməsinə böyük önəm verir. Hər birimiz orduya göstərilən diqqət və qayğıya görə Ali Baş Komandana minnətdar olmalıyıq. İnamla deyə bilərəm ki, bu gün hərbi andı qəbul edən əsgərlərimiz də Heydər Əliyev ideyalarına sadiq qalaraq Vətənimizə sədaqətlə xidmət edəcək, əsl döyüşçülər kimi formalaşacaqlar", - deyə zabit vurğuladı.

Gənc əsgər İsmayıl Hüseynov çıxış edərək silahdaşları adından bildirdi ki, Vətənin çağırışını yerinə yetirməyə hazır olacaqlar.

Əsgər valideynləri adından Elman Cavadlı ordumuzun inkişafına yaradılan şəraitə görə ölkə və ordu rəhbərliyinə minnətdarlığını bildirdi.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, şairə Aləmzər Əlizadə və gənc şairə Samirə Səma da əsgərləri təbrik edərək onlara qələbə sevinci arzuladılar.

Sonda əsgər və zabitlər ulu öndərin həyat və fəaliyyətinə həsr olunmuş sənədli filmə baxdılar.

* * *

Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində də gənc əsgərlərin andiçmə mərasimi əlamətdar hadisəyə çevrildi. Mayor Osman Hüseynov gənc əsgərlərin hərbi andı qəbul etməyə hazır olmaları barədə polkovnik-leytenant Müşfiq Quliyevə raport verdi. Zabit M.Quliyev gənc əsgərləri təbrik etdi. Şəxsi heyət müstəqilliyimizin rəmzi olan Dövlət himnini oxudu.

İlk söz polkovnik-leytenant Müşfiq Quliyevə verildi. O, bildirdi ki, bu gün xalqımızın, Vətənimizin tarixində böyük bir gündür. Xalqımızın dahi rəhbəri fenomen şəxsiyyət, müsair Azərbaycan dövlətinin banisi Heydər Əliyevin doğum günüdür. Bu gün bütün xalqımız, eləcə də hərbi qulluqçular tərəfindən böyük təntənə ilə qeyd olunur. Ulu öndərin uzaqgörən daxili və xarici siyasətinin bəhrəsidir ki, ölkəmiz qüdrətli inkişaf yolu keçib. Müstəqilliyimizin və dövlətçiliyimizin güclü dayağı sayılan Silahlı Qüvvələrimiz regionumuzun ən qüdrətli ordusuna çevrilib. Böyük öndərin layiqli davamçısı, Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən ölkəmizdə quruculuq işləri uğurla davam etdirilir. Onun rəhbərliyi ilə mühüm iqtisadi layihələr həyata keçirilir, yeni-yeni uğurlara imza atılır. Silahlı Qüvvələrimizin daha da möhkəmləndirilməsinə böyük diqqət yetirən Ali Baş Komandan daim qeyd edir ki, qarşımızda duran əsas vəzifə işğal altında olan torpaqlarımızın azad olunmasıdır. Bu gün ordumuzun sıralarına qoşulan gənc əsgərlərimiz də Vətən andına sadiq qalacaq, əsgəri borclarını layiqincə yerinə yetirəcəklər.

Polkovnik-leytenant Natiq Əhədov, ehtiyatda olan zabit Fəxrəddin Əlirzayev və başqaları çıxış edərək gənc əsgərləri təbrik etdilər, onlara xidmətdə uğurlar arzuladılar.

Gənc əsgərlər adından çıxış edən Abduləli Məmmədov Vətənə sədaqətlə xidmət edəcəklərinə söz verdi.

Sonda əsgərlər mətin addımlarla tribunanın önündən keçdilər.



**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan-Türkiyə birgə taktiki təlimləri keçirilir



***Hərbi əməkdaşlıq haqqında sazişə əsasən, Azərbaycan-Türkiyə Silahlı Qüvvələrinin mayın 12-dən başlanan birgə taktiki təlimlərinin ilk mərhələsi keçirilib.***

Təlimlərdə 1000 nəfərədək şəxsi heyət, 80-dək zirehli texnika, 60-dan çox artilleriya qurğusu və minaatanlar, Hərbi Hava Qüvvələrinin 12 ədəd döyüş və nəqliyyat helikopteri, həmçinin qruplaşmanın havadan mühafizəsi məqsədilə müasir müdafiə kompleksləri ilə silahlanmış hava hücumundan müdafiə və zenit-raket bölmələri iştirak edir.

Keçirilən təlimlərin əsas məqsədi Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında təcrübə mübadiləsini həyata keçirməklə koordinasiyanı inkişaf etdirmək, qərargahların müştərək planlaşdırmanı, bölmələrin hazırlığı və əməliyyatları icra etmə qabiliyyətini yüksəltməklə iki ölkənin hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinə nail olmaqdır.

Təlimlərdə müdafiə olunan düşmənə qarşı birgə hücum əməliyyatlarının təşkili və aparılması, zirehli qrupların düşmənin müdafiə xəttini yarmaqla təyin olunmuş istiqamətdə əlverişli həddi ələ keçirməsi, taktiki hava desantının düşmən bölmələrinin arxasına atılması, hücumda olan qoşunların dəstəyi üzrə hava hücumundan müdafiə qoşunlarının qarşılıqlı fəaliyyəti məsələlərinin öyrənilməsi mövzularında tapşırıqlar yerinə yetiriləcəkdir.

Motoatıcı və tank bölmələri, raket və artilleriya qurğuları, zenit-raket kompleksləri və helikopterlər döyüş atışlı mərmi və raket buraxılışlarını icra edəcəklər.

Təlimlər mayın 16-dək davam edəcəkdir.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# 93 yaşlı veteranla görüş



Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsindən redaksiyamıza verilən məlumata görə, faşizm üzərində Qələbənin 70-ci ildönümü ərəfəsində 93 yaşlı Böyük Vətən müharibəsi veteranı Baba Əliyevlə şəxsi heyətin görüşü keçirilib.

Polkovnik-leytenant İkram Səfərov görüşə dəvət olunan veteranı şəxsi heyətin adından salamlayaraq onu 9 May - Qələbə Günü münasibətilə təbrik edib və hərbi kollektivin ən xoş arzularını çatdırıb. Zabit qeyd edib ki, hər bir veteranın mənalı ömür və zəngin döyüş yolu ordu sıralarında xidmət edən gənclərə əsl örnəkdir.

Ömrünün mənalı hissəsini müharibə illərində keçirən veteran görüşə dəvət edildiyi üçün hərbi hissənin komandanlığına minnətdarlığını bildirib və şərəfli döyüş yolundan maraqlı epizodlar danışıb. O qeyd edib ki, hazırda ölkəmizdə müharibə veteranlarına dövlət rəhbərliyi tərəfindən yüksək diqqət və qayğı göstərilir. "Yaşımın bu ixtiyar çağında ən böyük arzum torpaqlarımızın erməni faşistlərindən azad ediləcəyi günü görməkdir", - deyən veteran əsgərlərə üzünü tutaraq onlara Vətənə sədaqətlə xidmət etməyi və torpaqlarımızı son qarışına kimi düşməndən təmizləməyi tövsiyə edib.

Sonda müharibə veteranı ilə xatirə şəkli çəkdirilib.

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Mayın 11-dən 13-dək Munster şəhərində (Almaniya) artilleriya qoşunlarının təlimində müşahidəçi qismində iştirak edəcək, mayın 11-dən 15-dək Ankara şəhərində (Türkiyə) terrorçuluğa qarşı mübarizə çərçivəsində şəbəkələrə hücumlar kursu keçiriləcək.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***12 may 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 76 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Vazaşen kəndində yerləşən mövqelərindən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli, Ağdam və Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Tərtər rayonunun Yarımca, Çiləbürt, Göyarx, Qızıloba, Ağdam rayonunun Şuraabad, Şıxlar, Yusifcanlı, Kəngərli, Qaraqaşlı, Baş Qərvənd, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

AZƏRBAYCAN ORDUSU

*Hərbi vətənpərvərlik*

# "Təlimdə tər, döyüşdə zəfər"

**Ümummilli lider Heydər ƏLİYEV:**

*"Azərbaycanın bugünkü gəncləri indi özlərini müstəqil Azərbaycan dövlətinin gəncləri kimi hiss edirlər. Onların əksəriyyəti vətənpərvər gənclərdir. Biz də çalışmalıyıq ki, bu gənclərin hamısı vətənpərvər olsun və Vətənə xidmət etməyi özlərinin ən şərəfli vəzifəsi hesab etsinlər".*





***Bu günlərdə Akademik Zərifə Əliyeva adına liseydə "Təlimdə tər, döyüşdə zəfər" devizi altında 10-cu siniflər arasında hərbi vətənpərvərlik yarışı keçirildi.***

Yarış başlamazdan əvvəl liseyin hərbi rəhbəri Qılman Eyvazovla qısaca söhbət etdim. O bildirdi ki, hər il məktəbimizdə belə vətənpərvərlik tədbirləri keçirilir. Ötən il "Biz hamımız Mübarizik" devizi altında belə tədbir keçirildi. Şagirdlər bu yarışlarda həvəslə iştirak edir, komandalarını irəli çıxarmaq üçün öz bacarıqlarını əsirgəmirdilər. Bugünkü yarışda 9 komanda iştirak edir. Hər komanda 16 nəfərlə təmsil olunur.

Hərbi rəhbər yarış iştirakçıları ilə salamlaşdıqdan sonra komanda üzvlərinə uğurlar arzuladı.

Budur, hərbi forma geyinmiş məktəblilər maneələr zolağından məharətlə keçmək, komandalarını irəli çıxarmaq üçün cəld hərəkətlərlə irəli atıldılar. Şagirdlər yarışda qalib gəlmək üçün bir neçə maneə zolağını keçməlidirlər. Yarışın qaydalarına uyğun olaraq məktəblilər əvvəlcə fiziki hazırlıqlarını nümayiş etdirməli, sonra kütləvi qırğın silahından qorunmaq üçün əleyhqaz geyməli, maneələr zolağını keçməli, yaralıya ilkin tibbi xidmət göstərməli idilər. Şagirdlər birinci yerə çıxmaq üçün bütün səy və bacarıqlarını səfərbər etmişdilər. Komandaların azarkeşləri hər addımda şagirdləri alqışlayırdılar. Yarış öz axarı ilə davam edirdi. Münsiflər heyəti isə məktəblilərin hər bir hərəkətinə göz qoyur, müvafiq qeydlərini aparırdılar. Yarışda səsləndirilən musiqi isə şagirdləri daha da ruhlandırır, onlara güc-qüvvət verirdi.

Liseyin direktor müavini Həcər İsrafilova məktəblilər arasında belə yarışların keçirilməsinə münasibət bildirərək dedi ki, gənc nəslin



vətənpərvərlik tərbiyəsində bu cür tədbirlərin əhəmiyyəti böyükdür. "Neçə müddətdir ki, məktəblilərimiz bu yarışa hazırlaşıblar. Tez-tez eşitdiyim və çox sevdiyim bir söz var: qoy güclülər qalib gəlsin. Doğrudan da, kim güclüdürsə, o da qalib gələcəkdir. Mən komandaların bütün üzvlərinə uğurlar arzulayıram".

Gərgin keçən yarış sona yaxınlaşırdı. Artıq idmançıların həyəcanı arxada qalmışdı. Bir azdan hərbi rəhbər yarışın başa çatdığını bildirdi. İştirakçılar qarşısında çıxış etmək üçün söz fəxri qonağa - Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi vəzifəsini icra edən polkovnik Rüfət Əmirova verildi. Polkovnik dedi:

- Hörmətli yarış iştirakçıları. May ayı bayramlar ayıdır. Bir neçə gün əvvəl faşizm üzərində Qələbənin 70 illiyi böyük təntənə ilə qeyd edildi. Mayın 10-da isə ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ölkəmizin hər yerində böyük coşqu ilə keçirildi. Bu gün isə sizin yarışınızı maraqla izlədik. Hazırlığınız yüksəkdir. İnanıram ki, siz gələcəkdə Vətənə bacarıqlı əsgər, dövlətə layiqli vətəndaş olacaqsınız.

Akademik Zərifə Əliyeva adına liseyin direktoru Mehriban Vəliyeva da çıxış edərək yarış iştirakçılarını salamladı. Onların hazırlığından razı qaldığını bildirdi. Qeyd etdi ki, əziz şagirdlər, bildiyiniz kimi məktəbimizdə hər il 28 May - Respublika Günü münasibəti ilə hərbi vətənpərvərlik mövzusunda yarış keçirilir. "Yaxşı bilirəm ki, belə yarışlar sizin hər birinizin ürəyincədir. Çünki bu birinciliklərdə siz həvəslə iştirak edir, nəyə qadir olduğunuzu nümayiş etdirirsiniz. Bugünkü yarış da çox maraqlı və gərgin keçdi. Siz fiziki gücünüzü, bacarığınızı ortalığa qoyub maneələr zolağını keçdiniz, komandanızı qələbəyə yaxınlaşdırdınız. Əziz şagirdlər, siz həmişə liseyimizin başını uca etmisiniz. Siz hamınız bu yarışın qalibisiniz. Çünki siz bu birincilikdə həvəslə, ürəklə iştirak etdiniz. Dərslərinizi necə oxuyursunuzsa, yarışda da elə iştirak etdiniz. Bu günün hazırlıqlı şagirdi sabahın yaxşı əsgəridir. İnanıram ki, bu gün yarışda qazandığınız təcrübə orduda xidmət edəndə də sizə gərək olacaq. Hər birinizə gələcək həyatınızda uğurlar arzulayıram. Arzu edirəm ki, həmişə qələbə sevinci yaşayasınız".



Qaliblərə kuboku liseyin müəllimi Ələddin Məmmədli təqdim etdi.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Ordu və cəmiyyət*

# Oğullar Vətən üçün doğulur



Təməli ulu öndərimiz tərəfindən qoyulan Azərbaycan Ordusunun müasir dünya standartlarına uyğunlaşdırılması prosesi hazırda dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. O, torpaqlarımızın bütövlüyünü qan tökmədən, sülh yolu ilə təmin etmək istəyir. Şəhid atası kimi dövlətimizin rəhbərinin bu mövqeyini alqışlayır, ona Tanrıdan cansağlığı arzulayıram. Şəhid ailələrinə göstərilən diqqət və qayğı məhz Prezidentimiz cənab İlham Əliyevin humanist siyasətinin göstəricisidir. Mən əmək veteranıyam, 40 il neft sənayesində qazmaçı işləmişəm. Zəhmətkeş ailə başçısı olaraq övladlarımı da halallığa alışdırmışam. 1 oğul, 2 qız atasıyam. Oğlum Səttar Nəcəfov 1994-cü il martın 21-də torpaqlarımızın azadlığı uğrunda gedən ağır döyüşlərdə - Horadiz əməliyyatında qəhrəmancasına şəhid oldu. O, 1971-ci ildə Bakı şəhərində anadan olmuşdu. Sovet ordusunda 2 il hərbi xidmət keçdikdən sonra könüllü Qarabağ uğrunda döyüşlərə qatılmışdı. Ailənin tək oğul övladı olmasına baxmayaraq, ona bir ata kimi nəsihətimi etmişdim. Vətəninə, xalqına xidmət etmək sənin borcundur, onun yolunda canından keçməyə hazır olmalısan, - demişdim. - Axı, oğullar Vətən üçün doğulur. Səttar Vətəninə, elinə layiq övlad oldu. Başımızı uca etdi.

Hazırda yaşadığımız küçə onun adını daşıyır. Qobustan qəsəbəsində abidəsi qoyulub. Son vaxtlar yaşım və səhhətimlə əlaqədar olaraq büstün ətrafındakı yaşıllığa vaxtlı-vaxtında qulluq göstərə bilmirəm. Novruz bayramı günü - martın 21-də abidəni ziyarətə gələndə bir qrup hərbçinin burada abadlıq işləri ilə məşğul olduğunu gördüm, böyük fərəh hissi keçirdim. Mayın 2-də də eyni vəziyyətlə qarşılaşdım. Yaxınlıqdakı hərbi hissənin şəxsi heyəti abidənin ətrafında səliqə-sahman yaradır, abadlıq işləri görürdü. Bu məni şəhid atası kimi çox fərəhləndirir. Qüdrətli ordumuzun belə vətənpərvər oğulları ilə fəxr edirəm. Tam əmin oldum ki, ordumuzun mərd oğulları yetişib, gələcəyimiz etibarlı əllərdədir.



Şəxsən öz adımdan və bütün Qobustan qəsəbəsinin şəhid ailələri adından bizə göstərilən diqqət və qayğıya görə Prezident, Ali Baş Komandan cənab İlham Əliyevə, həmçinin Müdafiə naziri general-polkovnik Zakir Həsənova dərin minnətdarlığımı bildirirəm.

"N" hərbi hissəsinin zabitləri Rövşən Həmidova, Pərviz Rəhimova, Ceyhun Kərimova, Nadir Həsənova, əsgərlərdən İsmayıl Təyyarlıya, Elnur Tapdıqova, Nəcəf Nəcəfliyə və başqalarına da qəzetiniz vasitəsilə təşəkkürümü çatdırıram. İnanıram ki, Ali Baş Komandanımızın və Müdafiə nazirimizin rəhbərliyi ilə belə oğulların sayəsində torpaqlarımız düşməndən azad ediləcək, şəhidlərimizin qanı yerdə qalmayacaq.

**Sədyar NƏCƏFOV,**
**şəhid atası,**
**Qaradağ rayonu**
**Qobustan qəsəbəsi**



# Yarışlar başa çatdı

***"Şahin" hərbi idman oyunları məktəblilərin fiziki hazırlığının artırılması ilə bərabər onların mənəvi hazırlığının yüksəldilməsində mühüm rol oynayır. Məhz buna görə də bu idman oyunlarına böyük diqqət yetirilir.***

"Şahin" hərbi idman oyunları müəyyən mərhələlərlə keçirilir. Təbii ki, daha güclülər növbəti mərhələyə keçir, hər mərhələ daha güclüləri müəyyənləşdirir. Mərhələlərarası vaxtda komandalar növbəti yarışa hazırlaşaraq qələbə uğrunda daha kəskin mübarizəyə qoşulur.

"Şahin" hərbi idman oyunlarının final mərhələsi ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü günü C.Naxçıvanski adına Hərbi Liseydə keçirildi.

Hərbi idman oyunlarının finalında Respublika Gənclər və İdman, Təhsil nazirlikləri rəsmilərinin, Respublika Veteranlar Təşkilatı nümayəndələrinin iştirak etməsi ölkəmizdə "Şahin" hərbi idman oyunlarına nə səviyyədə diqqət yetirildiyinin təsdiqidir.

Tədbirdə ümummilli liderimiz Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Azərbaycan Respublikasının Dövlət himni tədbir iştirakçılarının alqışları ilə tamamlandı.

C.Naxçıvanski adına Hərbi Liseyin rəisi general-mayor Mirzə Almasov çıxış edərək ümummilli lider Heydər Əliyevin ömür yolundan danışdı, onun müasir Azərbaycan dövlətinin memarı olduğunu, Silahlı Qüvvələrimizin formalaşmasında əvəzsiz xidmətlərini vurğuladı və yarış iştirakçılarına uğurlar arzuladı.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda qazandığı xallara görə Xətai rayonunun komandası 1-ci yeri tutaraq yarışların qalibi oldu. Nizami rayonunun komandası 2-ci, İsmayıllı rayonunun komandası isə 3-cü yeri tutdular.

"Şahin" hərbi idman oyunlarının keçirilməsi məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsində mühüm amillərdən biridir. İnanırıq ki, bu yarışlar gələcəkdə də daha böyük coşqu ilə keçiriləcəkdir.

**"Azərbaycan Ordusu"**

# Hərbi orkestrlərin sədaları altında əsgər naharı

***Ötən günlər ölkəmizin ictimai-siyasi həyatında əlamətdar tarixi hadisələrin qeyd edilməsilə yadda qaldı. Azərbaycanın bütün bölgələrində xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü və faşizm üzərində Qələbənin 70 illik yubileyilə bağlı təntənəli tədbirlər təşkil edilmişdi.***



Ölkəmiz üçün önəmli olan tarixi günlərin qeyd edilməsinə Silahlı Qüvvələrimizdə maraqlı yanaşmaların şahidi olduq. Hər şeydən öncə böyük öndərin doğum günü və Qələbə bayramı münasibətilə ordumuzun bütün hissə və bölmələrində təntənəli tədbirlər təşkil olundu. Hərbi qulluqçularımız iməciliklər keçirib abadlıq işləri apardılar, ağac əkdilər.

Ordumuzun şəxsi heyəti həm də hərbi hissələrdən kənarda bir sıra diqqətəlayiq aksiyalar keçirməklə ölkə ictimaiyyətinin nəzərini cəlb etməyi bacardı.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin verdiyi məlumata görə, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü və Böyük Vətən müharibəsində Qələbənin 70 illik yubileyi münasibəti ilə mayın 9-da bayram günlərində saat 17:00-dan 19:00-dək keçirilmiş Bakı şəhərinin müxtəlif yerlərində Silahlı Qüvvələrin orkestrlərinin nümunəvi çıxışları paytaxt sakinlərinin dərin marağına və rəğbətinə səbəb olub.

Hərbi orkestrlər Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, ümummilli lider Heydər Əliyevin, tanınmış oftalmoloq alim Zərifə xanım Əliyevanın adlarını daşıyan parklarda, həmçinin Dənizkənarı Milli Parkda maraqlı konsert proqramı ilə çıxış ediblər.

Eyni zamanda Naxçıvan, Gəncə, Şəmkir, Sumqayıt, Bərdə, Beyləqan, Lənkəran, 



və Qusar şəhərlərində də mayın 9-u və 10-da Silahlı Qüvvələrin orkestrlərinin nümunəvi çıxışları olub. Hərbi musiqiçilərin səsləndirdiyi marşlar və vətənpərvərlik mahnıları Azərbaycan vətəndaşlarında yüksək bayram ovqatı yaradıb.

Mayın 9-da həmçinin, hərbi hissələrə məxsus səhra mətbəxlərində hazırlanan əsgər naharı Bakı şəhərinin müxtəlif yerlərində paytaxt sakinlərinə təqdim edilib. Müdafiə Nazirliyi tərəfindən təsdiq edilmiş vahid menyuya uyğun bişirilmiş yeməklərə bayram tədbirində hər kəs - uşaqlar, gənclər, böyüklər, ahıllar qonaq olub, əsgər rasionuna daxil olan keyfiyyətli nahardan dadaraq hərbi orkestrlərin səsləndirdiyi mahnıları dinləyiblər. Şəhər sakinləri hərbi hissələrə baş çəkmədən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü və Böyük Vətən müharibəsində qələbənin 70 illik yubileyi münasibəti ilə keçirilən tədbirlər zamanı ordumuzda xidmət edən zabit və əsgərlərimizin məişətilə yaxından tanış olmaq imkanı da qazanıblar. Beləliklə, Azərbaycan xalqının bağrından qopmuş Silahlı Qüvvələrimizin xalqla vəhdətdə olması fikri bir daha öz təsdiqini tapıb.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Sloveniyanın faşizmdən azad edilməsi zamanı həlak olmuş soydaşlarımızın xatirəsi anılıb

İkinci Dünya müharibəsinin başa çatması və Sloveniyanın faşizmdən azad edilməsinin 70 illik yubileyi münasibətilə bu ölkədə bir sıra tədbirlər keçirilib. Eyni zamanda, ölkənin azad edilməsi zamanı qəhrəmancasına həlak olmuş azərbaycanlı zabit və əsgərlərin xatirəsi yad edilib.

Mayın 9-da Sloveniyanın Şempas qəsəbəsində Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan xalqının qəhrəman oğlu Mehdi Hüseynzadə - Mixaylo haqqında informativ tablonun açılışı olub.

Tədbirdə Azərbaycanın bu ölkədəki səfiri Qalib İsrafilov, Şempas qəsəbəsinin meri Barbara Kante, Sloveniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Miryan Klanşçek, Nova Qoritsa şəhərini ölkə parlamentində təmsil edən Damyana Pavlitsa çıxış ediblər, informativ tablonun rəsmi açılışı olub. Sonra qonaqlar əfsanəvi partizan Mixaylonun ev muzeyi ilə tanış olublar. M.Hüseynzadənin muzeyin qarşısında ucaldılmış büstü önünə Azərbaycan və Ukrayna səfirliyi, ARDNŞ və digər qurumlar tərəfindən əklillər qoyulub.

Sonra Nova Qoritsa regionuna səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Trnovo qəsəbəsinə gəlib. Burada soydaşlarımızın adı həkk olunmuş memorial abidənin açılışı olub. Şempas qəsəbəsindəki informativ tablo və Trnovo qəsəbəsində Xatirə Parkındakı memorial abidə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dəstəyi ilə inşa edilib.

**AZƏRTAC-ın**
**materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 445
Nüsxə 4600